**Füzurə QULİYEVA**
*F.Köçərli adına Respublika*
*Uşaq Kitabxanasının direktoru,*
*Əməkdar mədəniyyət işçisi*

## GÖRKƏMLİ ALİM HAQQINDA BİR NEÇƏ SÖZ

Görkəmli alimimiz Abuzər Xələfov haqqında fikir söyləmək həm asandır, həm də çətin. Ona görə asandır ki, onun barəsində söz açmaq insanı fərəhləndirir, düşündürür, zənginləşdirir. Ona görə çətindir ki, onun zəhmətini, işgüzarlığını, elmi fəaliyyətini kiçik bir yazıda tam əhatə etmək mümkün deyil.

Kitabxana işinin elə bir sahəsi yoxdur ki, professor A.Xələfov onun haqqında öz elmi mülahizələrini, fikirlərini söyləməmiş olsun. Məhz bu baxımdan onun elmi fəaliyyəti həmişə böyük maraq doğurmuş və diqqət mərkəzinə çevrilmişdir.

Görkəmli alimin ən böyük üstünlüklərindən biri də ondadır ki, bütün fəaliyyəti boyu yazıb-yaratmaqdan ayrılmamış, kitabxanaşünaslığın müxtəlif sahələrinə dair sanballı əsərlər yazaraq elmi ictimaiyyətin ixtiyarına vermişdir. Onun yazdığı hər bir əsər milli kitabxanaşünaslıq elminin formalaşmasına müsbət təsir göstərmişdir.

Böyük iftixar hissi ilə deyə bilərik ki, onun qələmindən çıxmış bütün əsərlər kitabxana işinə dair ən qiymətli və ən mötəbər bilik xəzinəsidir.

Professor A.A.Xələfov görkəmli bir alim, tədqiqatçı və pedaqoq kimi həm də ali kitabxanaçılıq təhsilinin təkmilləşməsinə, inkişafına və kitabxanaçı kadrların yetişdirilməsinə öz töhfəsini vermişdir. Hazırda onun yetirmələri olan 5 mindən artıq mütəxəssis respublikamızın müxtəlif kitabxa-

nalarında səmərəli fəaliyyət göstərir, müəllimlərinin şərəfini layiqincə doğruldurlar.

Səriştəli bir təşkilatçı kimi tanınan professor A.A.Xələfovun təşkilatçılıq məharəti sayəsində Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsin böyük inkişaf yolu keçmiş, təkmilləşmiş, Azərbaycanın müstəqilliyi şəraitində tədris işinə yeni keyfiyyət üstünlükləri gətirilmişdir. Alim doğtma fakültənin şərəfini, nüfuzunu həmişə uca tutmuş, kollektivin funiversitet üzrə daim qabaqcıllar cərgəsinə çıxmasına nail olmuşdur.

Professor A.Xələfov həmişə yüksək biliyə, elmi səviyyəyə, böyük təcrübəyə malik olan şəxsləri Kitabxanaçılıq-informasiya fakültəsinə cəlb etmiş və tədrisin keyfiyyətini təkmilləşdirmişdir. Görkəmli təşkilatçı alim eyni zamanda müntəzəm olaraq müəllim kadrlarının seçilib yerləşdirilməsinə və formalaşmasına böyük diqqət yetirmişdir. Bunu xatırlamaq kifayətdir ki, indiyə qədər onun elmi rəhbərliyi ilə Kitabxanaçılıq-informasiya fakültəsində kitabxanaşünaslıq elmi üzrə 20-yə yaxın doktorluq və namizədlik dissertasiyası müvəffəqiyyətlə müdafiə edilmişdir. Bu da fakültənin elmi və tədris səviyyəsinin artmasına, dərslərin keyfiyyətcə yaxşılaşdırılmasına mühüm təsir göstərmişdir.

Hörmətli alimimiz A.Xələfov bizim F.Köçərli adına Respublika Uşaq Kitabxanasınının da yaxın dostudur. Biz həmişə onun qayğısını, diqqətini üzərimizdə hiss edirik. A.Xələfov metodik tövsiyələrəin hazırlanmasında işlərimizin günün tələbləri səviyyəsində qurulmasında bizə həmişə dəyərli zəruri göstərişlər, elmi təkliflər, faydalı məsləhətlər verir. Onun zəhmətini heç vaxt unutmaq olmaz.

Kitabxanaşünas-alim A.Xələfov təkcə Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də tanınmış görkəmli bir şəxsiyyət kimi ad qazanmışdır. O, Sovetlər Birliyi məkanına daxil olan, hazırda müstəqil fəaliyyət göstərən bütün respublikaların mədəniyyət institutları ilə müntəzəm olaraq əlaqə saxlamış, kitabxanaçılıq elmi sahəsində bir sıra maraqlı fikir



mübadilələri aparmış, geniş dostluq münasibətləri yaratmışdır.

Ötən illər ərzində görkəmli alimimizin elmi-pedaqoji fəaliyyəti geniş vüsət almış və zənginləşmişdir. Qoy bu üstün xüsusiyyətlər onu həmişə elmin ən yüksək zirvələrinə ucaltsın!

Möhtərəm ağsaqqalımız professor Abuzər Xələfovu 75 illik yubileyi münasibətilə kitabxanamızın kollektivi adından ürəkdən təbrik edir, ona üzün ömür, cansağlığı və yeni-yeni uğurlar arzulayıram!